www.amu.edu.az

# TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti — Qəzet 1933-cü ildən çıxır — №-02 (1763) 31 yanvar 2023-cü il



## ATU-da imtahan prosesi: hər bir tələbə öz real qiymətini alır

### Qaydaları pozan heç kimə güzəşt yoxdur

səh. 4

### Ümummilli Liderin Azərbaycan abidəsi

səh. 2

### Universitetimizin nümayəndə heyəti Pakistanda səfərdə olub

səh. 3

### Amerikalı professor rezidentlərimizə treninq keçib

səh. 4



### Heç vaxt unudulmayacaq 20 Yanvar faciəsi

Qanlı hadisələrin şahidi olan əməkdaşlarımız həmin günlərdə neçə-neçə yaralının həyatını xilas edib

səh. 5

### Hazırlıq kursuna növbəti qəbul prosesi başa çatıb

*560-a yaxın əcnəbi şəxs universitetimizdə təhsil alacaq*

səh. 3

### Tibb bacıları üçün seminarlara start verilib

səh. 6



### Müalicə prosesində laborator analizlərin müstəsna rolu var

ATU-nun Onkoloji Klinikasında laborator diaqnostikanın bütün mərhələləri operativ və dəqiq həyata keçirilir

səh. 7

Heydər Əliyev İli

# Ümummilli Liderin Azərbaycan abidəsi

## ATU-da hər kəs "Heydər Əliyev İli"nə öz layiqli töhfəsini vermək üçün ürəkdən çalışır

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2022-ci il yanvarın 5-də imzaladığı Sərəncam əsasında bünövrəsi 1752-ci ildə Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulan Şuşa Qalasının 270 illiyi münasibətilə 2022-ci ilin "Şuşa İli" adlandırılmasından bir il ötdü. Artıq bir aydır ki, 50 milyonluq dünya azərbaycanlılarının tərkib hissəsi kimi Azərbaycan Tibb Universitetinin əməkdaşları da yeni təqvim ili olan 2023-cü ilin, "Heydər Əliyev İli"nin major akkordlarının notlarına kökləniblər. "Heydər Əliyev İli"nin hər anı cahana sığmayan böyük bir tarixdir. Bu gün biz Ümummilli Liderin yanvar ayına təsadüf edən ümumbəşəri fəaliyyətinin müəyyən məqamları ilə yanaşı, bilavasitə Azərbaycan Tibb Universiteti ilə əlaqədar zəngin tarixin bəzi fraqmentlərinə də toxunmaq, xatırlatmaq istərdik.**



Ölkəmizdə "Heydər Əliyev İli"nin qarşılanmasına hazırlığa hələ 2022-ci il sentyabrın 29-da başlanılmışdı. Həmin tarixdə prezident İlham Əliyevin imzaladığı Sərəncama əsasən, Ümummilli Liderin anadan olmasının 100 illik yubileyi şərəfinə 2023-cü il "Heydər Əliyev İli" adlandırılıb. Həmin andan etibarən 100 illiyin təntənələrinə doğru gedən 2023-cü ilin xoş sədalarından doğan əhval-ruhiyyənin təsiri altında fəaliyyət göstəririk.

Yanvar ayının əvvəllərində Bakıya yağan ilk qar da "Heydər Əliyev İli"nin ruzi-bərəkətlə, bol nemətlərlə başlanmasının daha bir rəmzi ifadə meyarına çevrildi. Hər yağan qar torpağı, havanı, ətraf mühiti dəyişmək, ekoloji amilləri canlandırmaqla yanaşı, insan qəlbini də durulaşdırır, saflaşdırır, təmizləyir, dirçəldir, həyat eşqini artırmaqla xeyirxahlıq missiyalarını daha da qüvvətləndirir.

Sovet dövründə - 1969-1982-ci illərdə Ümummilli Lider Azərbaycana rəhbərlik etdiyi vaxtlarda Qarabağa çox böyük diqqət və qayğı ilə yanaşmışdı. Onun 1982-ci ilin qarlı-çovğunlu yanvar ayının 14-də Şuşada Molla Pənah Vaqifin məzarı üstündə tikdirdiyi abidənin təntənəli açılışını etməsi hazırda da qürurla xatırlanır. O, Şuşaya ailəsi ilə birlikdə Azərbaycanın elm, mədəniyyət, incəsənət adamlarının da böyük bir qrupunu aparmışdı və onları Dağlıq Qarabağa xüsusi diqqət yetirməyə istiqamətləndirirdi. Ulu Öndər deyirdi: "Şuşa Azərbaycanın ən əziz və böyük tarixi olan bir guşəsidir. Bu, Azərbaycan xalqının, əcdadlarımızın yaratdığı böyük abidədir, təkcə şəhər deyil, böyük bir tarixi abidədir".

Müzəffər Ali Baş Komandan İlham Əliyev 30 ilə yaxın bir müddətdən sonra Şuşanın erməni işğalından azad edilməsi haqqında Ulu Öndərin məzarı önündə hesabat verib: "İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi. Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, Zəfərimizin günüdür!"

1992-ci il noyabrın 21-də Naxçıvanda Heydər Əliyevin sədrliyi və 550 nəfərdən ibarət təşəbbüs qrupunun iştirakı ilə keçirilən konfransda Yeni Azərbaycan Partiyası (YAP) təsis olunub. Ulu Öndər həmin konfransda partiyanın sədri seçilib.

Yola saldığımız 2022-ci il noyabrın 21-də Ümummilli Liderin yaratdığı YAP-ın 30 illik yubiley tədbiri keçirilib. Partiyanın sədr müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bu münasibətlə verdiyi müsahibədə deyib: "Ümummilli Lider Heydər Əliyev tərəfindən yaradılan Yeni Azərbaycan Partiyası ölkəmizdə siyasi sistemə mühüm yeniliklər gətirdi... Yeni Azərbaycan Partiyası faktiki olaraq 30 il ərzində ölkəmizdə demokratik siyasi mühitin tərəfdarı olub. Son vaxtlar, xüsusilə də ölkəmizin tarixi Zəfərindən sonra Azərbaycanda və regionda yeni geosiyasi reallıqlar yaranıb. 44 günlük Vətən müharibəsi dövründə də Azərbaycan xalqı ümummilli maraqlar naminə vahid yumruq kimi birləşmək əzmində olduğunu göstərdi".

Onu da qeyd etmək istərdik ki, Tahir Budaqov həm də Azərbaycan Tibb Universitetinin məzunudur. Onun Yeni Azərbaycan Partiyasına, eləcə də "Heydər Əliyev İli"nə verdiyi töhfələr, şübhəsiz ki, "Alma mater" adlandırdığı Azərbaycan Tibb Universitetinə də başucalığı gətirir. Biz də öz növbəmizdə Azərbaycan Tibb Universitetinin əməkdaşlarını və tələbə-gənclərini Ümummilli Liderin yaratdığı Yeni Azərbaycan Partiyasının fəal üzvlərindən, möhkəm dayaqlarından sayırıq. Hazırda universitetimizdə partiyanın min beş yüzə yaxın vətənsevər üzvü var. Onlar da möhtəşəm "Heydər Əliyev İli"ni fəallıqla qeyd edənlərin sıralarındadır.

Ümummilli Lider 1969-cu ildən, yəni Azərbaycanda dövlət rəhbərliyinə gəldiyi vaxtdan etibarən, 35 ilə yaxın bir dövrdə Azərbaycan Tibb Universitetinin maddi-texniki bazasının möhkəmləndirilməsində, yüksəkixtisaslı elmi-pedaqoji kadrların hazırlanmasında müstəsna xidmətlər göstərib, daim bu ali məktəbin kollektivinə xüsusi qayğı və diqqətlə yanaşıb. Həmin dövrlərdə o, dörd dəfə Azərbaycan Tibb Universitetində olub. Belə ki, 1976-cı ilin avqust ayında qəbul imtahanı zamanı abituriyentlərlə görüşüb. 1980-ci ildə ATİ-nin 50 illik yubileyində, 1998-ci il sentyabrın 28-də ATU-nun 5 nömrəli tədris binasının, 2000-ci il iyun ayının 19-da isə universitetin unikal akt zalının açılışında və ATU-nun yaranmasının 70 illik yubileyində iştirak edib, bu ali tibb təhsili ocağı əməkdaşlarını elmi adlarla, orden və medallarla mükafatlandırıb.

2000-ci ildə Ümummilli Lider ölkəmizin müharibə şəraitində olduğunu nəzərə alaraq, Azərbaycanda hərbi həkimlərin, ixtisaslaşmış hərbi-tibb personalının yetişdirilməsi məqsədilə Azərbaycan Tibb Universiteti nəzdində Hərbi tibb fakültəsinin yaradılması haqqında Sərəncam imzalayıb. İkinci Qarabağ müharibəsində və postmüharibə dövründə bu fakültənin yetirmələri qəhrəman döyüşçülərimizin, fədakar qazilərimizin yanında oldular və nəyə qadir olduqlarını öz fəaliyyətləri ilə təsdiqlədilər. Bu fakültənin yaradılması bir daha Heydər Əliyev dahiliyinin, Heydər Əliyev uzaqgörənliyinin təsdiqinə və təntənəsinə çevrildi.

Azərbaycan Tibb Universitetinin ilk klinikası olan Tədris Stomatoloji Klinikanın təməli də 2002-ci ildə Ulu Öndərin təşəbbüsü və qayğısı ilə qoyulub. Sonralar bu ideya cənab Prezident İlham Əliyev tərəfindən davam etdirilib, onun və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın qayğısı sayəsində bu ali tibb təhsili ocağı nəzdində daha 3 klinika yaradılıb. Bu klinikalar hazırda regionun ən qabaqcıl klinikalarından hesab olunur və onlar həm COVİD-19 pandemiyası ilə mübarizədə, həm də İkinci Qarabağ müharibəsi dövründə vətən qarşısındakı borclarını ləyaqətlə yerinə yetiriblər.

Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəylinin rəhbərliyi və bilavasitə iştirakı ilə "Heydər Əliyev İli"nin əvvəllərində "Heydər Əliyev dərslərinin keçirilməsi Planı" tərtib edilib. Artıq onun icrasına və xeyriyyə aksiyalarının keçirilməsinə başlanılıb. Belə ki, 2023-cü il yanvarın 12-də Azərbaycan Tibb Universiteti və onun timsalında ATU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin iştirakı ilə "Heydər Əliyev İli"nə həsr olunmuş ilk xeyriyyə tədbiri keçirilib. ATU-nun əməkdaşları və tələbələrindən ibarət nümayəndə heyəti Milli Hematologiya və Transfuziologiya Mərkəzini ziyarət edib. Xeyriyyə tədbiri çərçivəsində THİK-in sədri Qoşqar İsmayılovun rəhbərliyi altında həmin mərkəzdə müalicə alan uşaqlar üçün Yeni il əyləncələri təşkil olunub, Gənc Tamaşaçılar Teatrının maraqlı tamaşalarından biri nümayiş etdirilib, pasiyentlərə hədiyyələr verilib.

Tədris Cərrahiyyə Klinikasının cərrah-endokrinoloqu Azər Hümbətovun təşkil etdiyi xeyriyyə aksiyasında isə 35 nəfər müayinədən keçirilib. Onlardan 33 nəfərinə qalxanabənzər vəzin struktur elementlərində aşkar edilən müxtəlif etiologiyalı morfo-funksional dəyişikliklərə görə adekvat müalicə məsləhətləri verilib.

"Heydər Əliyev dərslərinin keçirilməsi Planı"nın ardıcıl icrası məqsədilə bu dərslər artıq bütün dərs qruplarında mühazirələrinin plan və proqramlarına daxil edilib. Bu mühazirələr ilboyu "Heydər Əliyev dərslərinin keçirilməsi" ilə müşayiət olunacaq. ATU-da hər kəs ürəkdən çalışır ki, "Heydər Əliyev İli"nə öz layiqli töhfəsini verə bilsin. ATU-nun Əsaslı Kitabxanasında uzun illərdən bəri ardıcıllıqla həyata keçirilən "Heydər Əliyev Qiraəti Günləri" bu il də davam etdiriləcək və daha intensiv surətdə, böyük məmnunluq hissləri ilə aparılacaq. ATU-nun klinikalarında, müalicə ocaqlarında xeyriyyə aksiyalarının, həmçinin könüllü donorluq tədbirlərinin, müxtəlif ixtisaslar üzrə qeyri-infeksion xəstəliklərin qarşısının vaxtında alınması məqsədilə profilaktik monitorinqlərin keçirilməsi nəzərdə tutulur.

Azərbaycan Tibb Universitetinin professor-müəllim heyəti və tələbə-gəncləri ATU-nun rektoru, professor Gəray Gəraybəylinin bu ali tibb təhsili ocağında yaratdığı əlverişli şəraitdən istifadə edərək, onun özünün rəhbərliyi və göstərişi ilə "Heydər Əliyev dərsləri"nin yüksək səviyyədə keçirilməsi ilə yanaşı, universitetin Oftalmologiya kafedrasının professor-müəllim heyətinin iştirakı sayəsində akademik Zərifə Əliyeva irsinin öyrənilməsinə və onun 100 illik yubileyinin təntənələrinə xüsusi diqqət yetirilir. Akademik Zərifə Əliyeva irsi təkcə Azərbaycanda deyil, onun hüdudlarından kənarda da öyrənilir, yerinə yetirdiyi elmi-tədqiqat işlərinin dəyərli nəticələrinə, sanballı monoqrafiyalarına daim çoxsaylı istinadların edilməsi bu gün də geniş miqyasda davam etməkdədir. Bütün bunlar da, şübhəsiz ki, akademik Zərifə Əliyevanın bəşəri və sərhədsiz bir alim olduğunu səciyyələndirən tutarlı və vacib amillərdəndir. Şəfqətli və həssas həkim qəlbi zənginliklərinə malik görkəmli elm xadimi və ictimai xadim akademik Z.Əliyevanın digər sanballı əsərləri kimi, həkimlik deontologiyasına, həkimxəstə münasibətlərinə həsr etdiyi "Yüksək etimad" kitabı da qərinələr keçsə də, öz məna, məzmun və məntiqi təfəkkür dəyərini heç vaxt itirməyən nadir incilərdən, nadir əsərlərdəndir. Akademik Zərifə Əliyevanın söylədiyi – "Həkim xəstənin ağrılarını öz ağrıları kimi yaşamalıdır" – kəlamı həkimlik etikası aləmində hər bir dövr üçün aktual olaraq qalmaqdadır.

Universitetimizin əməkdaşları, tələbə-gəncləri Ümummilli Liderin və akademik Zərifə Əliyevanın bu ali tibb təhsili ocağına göstərdikləri qayğı və diqqəti heç vaxt unutmur, onların klassik irsinin zənginliklərindən bəhrələnir, tarixi nitqlərinin müddəalarını, məntiqli ideyalarının qloballığını əsas tutaraq həm təhsildə, həm də tibb elmi sahəsində yeni nailiyyətlərə imza atırlar.

Belə dahi şəxsiyyətlər, yenilməz liderlər ölməzlik zirvəsinə öz xeyirxah əməlləri, Vətən naminə, insanlıq və xalq naminə yerinə yetirdikləri bəşəri fəaliyyətləri ilə yüksəlirlər.

Möhtəşəm Heydər Əliyev dahiyanəliyi, qürurlu Zərifə Əliyeva əzəməti qədirbilən Azərbaycan xalqının qəlbində daim yaşayır və yaşayacaqdır.

**Sabir ƏLİYEV,**
*ATU üzrə YAP-ın sədri, Tədris və müalicə işləri üzrə prorektor, əməkdar elm xadimi, professor*
**Mübariz ALLAHVERDİYEV,**
*ATU-nun professoru, rektorun müşaviri*

# Universitetimizin nümayəndə heyəti Pakistanda səfərdə olub

**ATU-nun Elmi işlər üzrə prorektoru, dosent Rauf Bəylərov, Beynəlxalq əlaqələr şöbəsinin müdiri, dosent Müşfiq Orucov və Elmi hissənin Elm və tibbi tədqiqatlar üzrə koordinatoru Sevil Əsədova Pakistanın Riphah Beynəlxalq Universitetinin (RBU) qonağı olublar.**



Nümayəndə heyətinin üzvləri RBU-nun 17-ci Məzun Günündə fəxri qonaq qismində iştirak ediblər. Sonra nümayəndə heyətimiz ATU və RBU-nun bu ilin oktyabr ayında Bakıda birgə təşkil edəcəkləri “Tibb təhsili üzrə Beynəlxalq Konfrans”ın (ICME) təşkilati məsələlərini müzakirə etmək üçün tərəfdaş universitetin müvafiq səlahiyyətli şəxsləri ilə görüş keçirib. Görüşdə RBU İslam Beynəlxalq Tibb Kollecinin direktoru, general-leytenant, professor Azhar Rashid, Prorektor müavini, professor Yavər Hayat Khan, Riphah Tədqiqat və Təhsil Akademiyasının (RARE) direktoru, professor Rahila Yasmeen, Riphah Qiymətləndirmə İnstitutunun direktoru, professor Rehan Ahmed Khan və digər şəxslər iştirak edib.

Daha sonra nümayəndə heyətimiz İslam Beynəlxalq Tibb Kollecinin tədris korpusunda olub, nəzəri kafedralarda tədrisin təşkili prosesi ilə tanış olub və keçirilən imtahanların gedişini izləyib.

ATU nümayəndələri Pakistana səfərlə bağlı RBU-nun bütün ölkədə yayımlanan "Riphah Radio FM 102.2" radiostansiyasına müsahibə də veriblər. Müsahibə, eyni zamanda “Facebook”da canlı yayımlanıb.

Daha sonra əməkdaşlarımız Riphah Beynəlxalq Universitetinin rektoru Hassan Muhammad Khan tərəfindən qəbul ediliblər. Dosent Rauf Bəylərov ATU-nun rektoru, professor Gəray Gəraybəylinin salamlarını çatdırıb və RBU ilə əməkdaşlıqdan məmnun olduğumuzu bildirib. Görüşdə iki universitet arasındakı ikitərəfli əməkdaşlıq perspektivləri, planlaşdırılan beynəlxalq konfransın əhəmiyyəti haqqında fikir mübadiləsi aparılıb.

ATU nümayəndə heyəti səfər çərçivəsində Azərbaycan Respublikasının Pakistan İslam Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Xəzər Fərhadovla görüşüb. Görüşdə iki ölkə arasında elm, təhsil və mədəniyyət sahəsindəki əlaqələrin vəziyyəti, ATU ilə Pakistanın ali təhsil müəssisələrinin gələcək əməkdaşlıq planları müzakirə edilib.

# ATU-nun prorektoru beynəlxalq mükafat alıb



Azərbaycan Tibb Universitetinin Tədris və müalicə işləri üzrə prorektoru, professor Sabir Əliyevin fəaliyyəti xarici ölkə qurumları tərəfindən növbəti dəfə mükafatlandırılıb.

Belə ki, bu günlərdə prorektor S.Əliyev elm və təhsil sahəsində xidmətlərinə görə Almaniyanın “Europaische Akademie der Naturwissenschaften in Hannover e.V.” Cəmiyyəti tərəfindən “Wilhelm Conrad Röntgen medal”ına layiq görülüb.

Həmçinin o, Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyası tərəfindən 2022-ci ildə olan uğurları nəzər alınaraq, “Türk Dünyası İlin Alimi Beynəlxalq Mükafatı” ilə təltif edilib.

Qeyd edək ki, bu qiymətləndirmələr ictimai rəy və sorğulara əsasən aparılır.

# İctimai Nəzarət və Məsləhət Şurasının üzvləri imtahan prosesini izləyib

**Azərbaycan Tibb Universitetinin rektoru yanında İctimai Nəzarət və Məsləhət Şurasının üzvləri universitetdə keçirilən imtahan prosesinin gedişatını izləyiblər.**

Şuranın sədri, millət vəkili, həkim-qastroenteroloq İlham Məmmədov və şura üzvləri – “Asan Radio”nun direktoru Emin Musəvi, “Cəmiyyətin və Vətəndaş Münasibətlərinin İnkişafı” İctimai Birliyinin sədri Əhməd Abbasbəyli və ATU-nun Əczaçılığın texnologiyası və idarəçiliyi kafedrasının baş müəllimi, “Gənc vətəndaş” İctimai Birliyinin sədr müavini Aidə Bəndəliyeva imtahan öncəsi və imtahan prosesində tətbiq olunan yeniliklərlə maraqlanıblar.

İmtahan Mərkəzinin müdiri, filologiya üzrə fəlsəfə doktoru Ülkər Cəfərova 2022-2023-cü tədris ilinin payız semestrinin qış imtahan sessiyasına dekabrın 29-da başlanıldığını və imtahan sessiyasının cədvələ uyğun olaraq fevralın 1-də bitəcəyini bildirib: “Boloniya sisteminin özəlliyi ondadır ki, tələbənin 3 gün ərzində bu semestrdə kəsildiyi fənnin kreditinin 25 faizini ödəməklə yenidən imtahan vermək şansı var. Universitetimizdə imtahanlar modul proqramı üzərindən kompüterlə aparılır. Bu proqram artıq 2016-cı ildən tətbiq olunur. Hər il ümumi təhsilin keyfiyyətinin artırılması məqsədilə obyektiv və şəffaf qiymətləndirmə istiqamətində irəliləyişlər, yeni nailiyyətlər olur. Qayda belədir ki, tələbəyə öz şəxsi kabinetində nümunəvi test tapşırıqları verilir. PDF formatında yerləşdirilən test tapşırıqlarının cavabları qarışıq halda verilir. Açıq tipli test tapşırıqları daha yüksək bal almaq istəyən tələbələr üçündür. Hazırlıqlı tələbə bu tapşırıqları asanlıqla yerinə yetirərək yüksək bal toplayır”.



Ü.Cəfərovanın sözlərinə görə, cavablar İmtahan Mərkəzi tərəfindən xüsusi proqramla qarışdırılır. Bütün bunlar isə “Elektron universitet”in, Türkiyədə və başqa Avropa ölkələrində mövcud olan modul proqramın tətbiqi ilə həyata keçirilir. Keçən tədris ilindən nümunəvi test tapşırıqlarının sayı elektron tədris sistemində minimuma endirilib, 100 civarındadır. Belə suallar ixtisas fənlərindən 8-10, qeyri-ixtisas fənlərindən isə 5-dən çox deyil. Qalan suallar isə tələbələr üçün gizli saxlanılır. Məqsəd tələbələri əzbərçilikdən uzaqlaşdırmaq, onlarda dərsliklərlə, kitablarla işləmək vərdişi yaratmaqdır.

Şuranın üzvləri imtahanın gedişində tələbələrin və nəzarətçilərin də fikirlərini öyrəniblər. Tələbələrdən Samirə Sadıqova, İradə Ağazadə, Səidə Məmmədova, Laçın Əliyeva, Rəhimə Sultanlı və Elfan İsgəndəri testlərə proqrama uyğun sualların salındığını, imtahan prosesinin çox rahat keçdiyini söyləyiblər.

İmtahan-nəzarət qrupunun rəhbəri Pəri İsaqova, nəzarətçilərdən Yoluxucu xəstəliklər kafedrasının baş laborantı Alidə Mətiyeva, Ailə təbabəti kafedrasının əməkdaşı Günəş Babayeva, II Daxili xəstəliklər kafedrasının əməkdaşı Yaqut Quliyeva, Uşaq stomatologiyası kafedrasının əməkdaşı Səid Cabbarov, Fizioterapiya və tibbi reabilitasiya kafedrasının laborantı Bikəxanım Həsənova və Xarici dillər kafedrasının baş laborantı Svetlana Sultanova imtahanın gedişində indiyədək neqativ hala yol verilmədiyini bildiriblər.

Universitetdə tətbiq olunan yenilikləri müsbət qiymətləndirən şuranın üzvləri ATU-nun Apellyasiya Komissiyasının işi ilə də tanış olaraq tələbələrin şikayətlərini dinləyiblər. Əsas şikayətlər dərsdə keçilməyən mövzuların test tapşırıqlarına salınması ilə bağlı olub. Şuranın üzvləri şikayətlərin yerindəcə əsaslandırılması, tələbə məmnunluğunun təmin edilməsi barədə tövsiyələrini diqqətə çatdırıblar.

# Hazırlıq kursuna növbəti qəbul prosesi başa çatıb

## 560-a yaxın əcnəbi şəxs universitetimizdə təhsil alacaq

ATU-nun Hazırlıq kursuna skayp vasitəsilə növbəti qəbul prosesi başa çatıb. Universitetimizə bu il neçə əcnəbi tələbə qəbul olunub, hansı xarici ölkələrdən bizdə təhsil almağa maraq daha çoxdur? Bu və digər suallarla Xarici tələbələrlə iş üzrə dekanlığa müraciət etdik.

Bildirildi ki, son illər ərzində Azərbaycan Tibb Universitetinə əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin qəbulu xüsusi yaradılmış elektron portalı vasitəsilə həyata keçirilir. www.admission.amu.edu.az portalı ilə aparılan qəbul prosesi əcnəbi tələbələr üçün rahat, şəffaf və optimal variantdır. Nəticədə ATU-ya qəbul olunan əcnəbilərin sayı ildən-ilə artır. Xarici tələbələr və dinləyicilərin sayına görə, universitetimiz ölkədə inamla birinci yeri tutur. Universitetimizdə təhsil almaq marağını, həmçinin ötən il 3 əsas tədris proqramımızın beynəlxalq akkreditasiyası gücləndirib. Azərbaycan Tibb Universitetinə üç fakültə - Tibb, Stomatologiya və Əczaçılıq olmaqla, üç tədris dili üzrə qəbul hər tədris ilində üç dəfə, o cümlədən bir dəfə hazırlıq kursuna və iki dəfə baza tibb təhsilinin birinci kursuna (yeni payız və yaz semestrinə) icra olunur.

Hazırda ATU-da təhsil alan əcnəbi və vətəndaşlığı olmayan şəxslərin ümumi sayı 2410 nəfərdir (bura 2022-2023 hazırlıq kursu daxil deyil). Onlar dünyanın 50 ölkəsini təmsil edirlər.

Dekanlıqdan qeyd olundu ki, ən çox qonşu ölkələrdən tələbələr ATU-da təhsil almaqda maraqlıdır. Bunlar say etibarı ilə ilk yerlərdə Türkiyə, İran, Rusiya və Hindistandan olan tələbələrdir. Bu il ilk dəfə olaraq ATU-da təhsil almaq üçün Maldiv adaları və Bəhreyn vətəndaşları da müraciət ediblər və hazırlıq kursuna qəbul olunublar.

Məlumata görə, bu tədris ilində hazırlıq kursuna qəbul üçün 962 müraciət olub ki, onlardan da 543 nəfər onlayn müsahibəni müvəffəqiyyətlə keçib. Ölkəmiz tərəfindən təsis olunmuş Təhsil Qrantı Proqramı çərçivəsində isə universitetə daha 14 nəfər qəbul edilib.

Qeyd edək ki, Azərbaycan Tibb Universitetinə əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin qəbulu mühüm əhəmiyyətə malikdir və bu önəmli məsələ daim universitet rəhbərliyinin diqqət mərkəzindədir.

# “Nə? Harada? Nə zaman?” intellektual oyunu keçirilib



**Yanvarın 30-da Azərbaycan Tibb Universiteti Tələbə Həmkarlar İttifaqı Komitəsi və Nəsimi Rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə tələbələr arasında “Heydər Əliyev İli” çərçivəsində 2 Fevral - Gənclər Gününə həsr olunmuş “Nə? Harada? Nə zaman?” intellektual oyunu keçirilib.**

Yarışın keçirilməsində məqsəd gənclərin intellektual səviyyəsini, dünyagörüşünü genişləndirmək və asudə vaxtlarını səmərəli təşkil etmək olub.

Tədbirdə Azərbaycan Tibb Universiteti THİK sədri Qoşqar İsmayılov, Nəsimi rayon GİI rəisi Şahmar Tağıyev, THİK İntellektual oyunlar klubunun sədri Arzu Musayeva və tələbələr iştirak ediblər.

Əvvəlcə torpaqlarımızın azadlığı uğrunda şəhid olmuş əsgər və zabitlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

THİK sədri Q.İsmayılov çıxış edərək bildirib ki, 2 Fevral - Gənclər Günü Ümummilli lider Heydər Əliyev tərəfindən təsis edilib. Ulu öndər gənclərlə bağlı məsələləri həmişə diqqət mərkəzində saxlayıb. Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi dövrlərdə yüzlərlə yeni tədris ocaqları, gənclik mərkəzləri yaradılıb, minlərlə azərbaycanlı gənc nüfuzlu ali məktəblərdə təhsil alıb, müasir ixtisaslara yiyələnib. Gənclərin ictimai-siyasi həyatda fəallığını artırmaq üçün həyata keçirilən Dövlət Proqramı, idarəetmə orqanlarında gənc mütəxəssislərə üstünlük verilməsi Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirilmiş gənclər siyasətinin uğurlu nəticəsidir.

Daha sonra yarışa start verilib. 8 komandanın təmsil olunduğu yarışda iştirakçılara 24 sual verilib. Yarışın nəticələrinə görə "WWW" komandası 1-ci, "Sinaps" komandası 2-ci, "Old School" komandası 3-cü olub. Qaliblər hədiyyə, medal və diplomlarla təltif edilib.

# Tədris Cərrahiyyə Klinikasında ciddi dəyişikliklər olacaq

**Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikası bu ildən yeni xidmətlər göstərəcək. Bunu klinikanın direktoru, professor Mücahit Avcil 2022-ci ilin yekunları və cari ildə görüləcək işlərə həsr olunmuş iclasda bildirib.**



Klinikanın rəhbərliyi və həkim heyətinin iştirak etdiyi toplantıda qeyd olunub ki, pandemiya və Vətən müharibəsi dövründə TCK nəcib bir vəzifəni boynuna götürərək, çoxlu sayda xəstə və yaralını sağlamlığına qovuşdurub. Klinika hazırda gərgin rejimdən çıxaraq, normal fəaliyyətini davam etdirir. Cərrahiyyə əməliyyatları tibb müəssisəsinin təcrübəli həkim və tədris heyəti tərəfindən həyata keçirilir.

Direktor çıxışında onu da vurğulayıb ki, 2023-cü ildən klinikada daha müasir avadanlıqlarla təchiz olunacaq Pediatriya poliklinikası, İnsult mərkəzi, eləcə də Yara baxım mərkəzi (Ən müxtəlif zədələri cərrahlar, terapevtlər, dermatoloqlar və travmatoloqlar birlikdə dəyərləndirəcək. Nəticədə, həm diaqnoz düzgün qoyulacaq, həm də zaman itkisinə yol verilməyəcək) fəaliyyət göstərəcək. Eləcə də pasiyentlərin məmnunluğunun artırılması məqsədilə onlara pulsuz «wi-fi»la təmin olunacaq xüsusi mərtəbə ayrılacaq, qeydiyyat və klinika nəzdindəki təhlil və radiologiya prosedurları asanlaşdırılaraq "istifadəçi dostu" (user friendly) keyfiyyəti təmin ediləcək. Klinikanın "check up" və "genetik check up" xidmətlərindən yararlanmaq da asanlaşacaq. Eyni zamanda, laboratoriya xidmətləri gücləndiriləcək, genetik testlərin çeşidi çoxaldılacaq. Bunlardan əlavə, yenidən təşkil olunacaq müasir təcili tibbi yardım xidməti sutkada 24 saat fəaliyyət göstərəcək.

İclasda qeyd olunub ki, hər bir vətəndaş öz sağlamlığını etibarlı əllərə həvalə etməlidir ki, mənfi nəticələrlə qarşılaşmasın. Bu baxımdan, işlər elə qurulmalıdır ki, Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikası hər kəsin öz sağlamlığı ilə bağlı müraciət edəcəyi ilk ünvan olsun.

# Amerikalı professordan ATU-nun rezidentlərinə treninq

**Tədris Cərrahiyyə Klinikasında rezidentlər üçün növbəti kurs baş tutub. Neyrocərrahiyyə üzrə təhsil alan rezidentlər qarşısında ABŞ-ın Wisconsin–Madison universitetinin mütəxəssisi, tibb elmləri doktoru Abdullah Keleş çıxış edib.**

Əvvəlcə ATU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Orxan İsayev bu cür təlimlərin rezidentlərin bilik və təcrübələrinin artırılmasında əhəmiyyətli rol oynadığını vurğulayıb. Prorektor treninqin baş tutmasında rolu olan hər kəsə, o cümlədən ATU-nun və klinikanın rəhbərliyinə, həmçinin xarici ölkələrdə uğurlu nəticələr nümayiş etdirən universitetimizin məzunu Turab Qasımova təşəkkürünü bildirib.

Doktor Abdullah Keleş çıxışının əvvəlində özü və Wisconsin–Madison universitetindəki fəaliyyəti haqqında məlumat verib. 2019-cu ildən etibarən bu universitetin Beyin cərrahiyyəsi laboratoriyasına rəhbərlik etdiyini bildirən doktor, bu müəssisədə önəmli klinik və tədris araşdırmalarının aparıldığını vurğulayıb.



Türkiyədə də oxşar kurslar keçdiyini deyən A.Keleş neyrocərrahiyyə, mikrocərrahiyyə, mikroamostamoz və digər mövzularla bağlı çıxış edib, öz təcrübəsini paylaşıb.

Böyük maraqla qarşılanan təlimin sonunda qonaq rezidentlərin sallarını cavablandırıb.

# ATU-nun professoru xarici ölkədə mühazirə və praktiki dərs keçib



**ATU-nun Terapevtik stomatologiya kafedrasının müdiri, professor Ağa Paşayev bu günlərdə xarici səfərdən qayıdıb. Belə ki, o, iki həftə müddətində Dəvətolunmuş professor (Viziting professor) kimi S.D.Əsfəndiyarov adına Qazaxıstan Milli Tibb Universitetində yerli tələbələrə mühazirə və praktiki dərs keçib.**

İlk həftəsi onlayn formatda, ikinci həftəsi isə Almatı şəhərində canlı şəkildə keçirilən tədris prosesinə Stomatologiya fakültənin II, III, V kurs tələbələri qatılıb və dərslər maraqla qarşılanıb. Mühazirə zamanı Tibb Universitetinin tələbələrinə müasir məlumatlar təqdim olunub və onların sualları cavablandırılıb.

Eyni zamanda tədris məsələləri ilə paralel olaraq, elmi işlərin müzakirəsi üçün yerli kafedra əməkdaşları ilə birgə seminarlar təşkil edilib. Tədris proqramlarına müqayisəli şəkildə baxılıb, tövsiyələr bildirilib. Elmi işlərin nəticələri təqdim olunduqdan sonra gələcək işlərin istiqaməti və birlikdə görülməsi zərurəti açıqlanıb.

Professor A.Paşayev 2022-ci ildə Azərbaycan Tibb Universitetində təcrübə keçmiş Qazaxıstan Milli Tibb Universitetinin Stomatologiya fakültəsinin tələbələri ilə də görüşüb. Tələbələr ATU-nun rəhbərliyinə, kafedra əməkdaşlarına öz razılıqlarını və təşəkkürlərini çatdırıblar.

Azərbaycanlı mütəxəssisin mühazirə və təcrübi dərs prosesi həm professor-müəllim heyəti, həm də tələbələr tərəfindən müsbət qiymətləndirilib. Gələcəkdə Azərbaycan Tibb Universiteti ilə tədris və elmi işlərdə əməkdaşlığın daha da genişləndirilməsi arzulanıb.

Universitetimizin əməkdaşı səfər çərçivəsində Almatı şəhəri, Qazaxıstan Milli Universitetinin zəngin tarixi və bir neçə profilli digər kafedralarla da tanış olub.

# ATU-da imtahan prosesi: hər bir tələbə öz real qiymətini alır

## Qaydaları pozan heç kimə güzəşt yoxdur

**Azərbaycan Tibb Universitetində 2022/2023-cü tədris ilinin payız semestrinin qış imtahan sessiyası davam edir. Vaxtaşırı universitetin rəhbər şəxsləri imtahanların gedişini izləyir, tələbələrin hər hansı problemlə üzləşib-üzləşmədikləri ilə maraqlanırlar.**



Bu günlərdə universitetin Tədris və müalicə işləri üzrə prorektoru, professor Sabir Əliyev, Tədris və təhsildə keyfiyyət təminatı şöbəsinin müdiri, dosent Kamandar Yaqubov ATU-nun İmtahan Mərkəzinə baş çəkiblər. Prorektor S.Əliyev qəzetimizə açıqlamasında imtahanın yaxşı təşkil edildiyini, cədvəllərin qaydasında olduğunu bildirdi: "Tələbələr vaxtında gəlir, imtahanlarını verirlər. İmtahana nəzarət də qaydasındadır. Doğrudur, biz uzun illər bu məsələni həll etməyə çalışırdıq. Son illər bu məsələ öz həllini tapıb. Həmişə maraqlanıram. Bu semestr tələbələrin elə bir narazılıq və narahatlığına rast gəlmədim. Düzdür, bəzi kafedralarda testlərin tərtibində müəyyən problemlər qalır, yəqin bu məsələ də növbəti imtahanlaradək öz həllini tapacaq. Bir sözlə, imtahan prosesi öz axarı ilə davam edir".

İmtahan Mərkəzinin müdiri, filologiya üzrə fəlsəfə doktoru Ülkər Cəfərova ötən illərlə müqayisədə imtahanların təşkilində xeyli irəliləyiş olduğunu dedi: "Təxminən ilyarım əvvəl imtahan nəzarətçilərinin fəaliyyətində də çatışmazlıqlar var idi. Artıq bununla bağlı problemimiz yoxdur. İmtahanlar yekunlaşır, bu müddət ərzində cəmi bir neçə qayda pozuntusu qeydə alınıb, bir tələbədə telefon aşkar olunub. Bu da mühafizəçilərin öz vəzifələrinə məsuliyyətlə yanaşmaları, tələbələri yaxşı yoxlamaları ilə əlaqədardır. Onlar tələbələrin hansısa vasitəni imtahan zalına keçirməsinin qarşısını alırlar".

Ü.Cəfərova bəzi kafedraların fəaliyyətindən narazılığını da diqqətə çatdırdı. Qeyd etdi ki, hələ də bəzi kafedralar testin tərtibinə məsuliyyətlə yanaşmır: "Bəzi fənlərdən Ana dilimizdə ədəbiyyat çatışmazlığı da imtahan zamanı ümumi işimizə mane olur. Əsaslı şəkildə apellyasiya şikayəti yaradır. Vahid bir ədəbiyyatdan istifadə edilməməsi həm bizə, həm də tələbələrə problem yaradır və vaxtımızı almış olur. Diqqətinizə çatdırım ki, imtahana gecikən tələbələrin də sayı azalıb. Çünki gecikənlərlə bağlı universitet rəhbərliyinin mövqeyi var. Onlar birmənalı olaraq, imtahana buraxılmır. Sonra araşdırılır, əgər obyektiv səbəbdən imtahana daxil olmayıbsa, ona təkrar imtahan verməyə şərait yaradılır".

İM-nin müdiri imtahana salınan test suallarından və tələbələrin imtahan zamanı əldə etdikləri göstəricilərdən də danışdı: "İmtahanlara hər bir fənn üzrə nümunəvi test tapşırıqları salınır. İmtahanların ağırlıq və yüngüllük dərəcələrindən asılı olaraq, 25 ədəd sualdan 5-10-u nümunəvi testin payına düşür. Məsələn, "Anatomiya"dan 10 sual salınır. 5-i isə gizli bazadan olur. Hər il suallar yeniləndiyi üçün tələbələr əzbərçilikdən uzaq olur, obyektiv qiymətlərini alırlar. Məsələn, I Müalicə-profilaktika fakültəsindən 123 nəfər imtahan verib. Onlardan 9-u 45-50 arası bal toplaya bilib. Bu, olduqca normal haldır. Bir nəfər 50 bal alıb. II Müalicə-profilaktika fakültəsindən isə "Histologiya" fənnindən 106 tələbə imtahan verib. Ən yüksək bal toplayan 33 nəfər olub. Onlar 27-31 arası bal toplayıblar. Stomatologiya fakültəsinin 103 tələbəsi isə "Histologiya" fənnindən müvəffəqiyyət qazana bilməyib. Onlar hazırlaşıb yenidən imtahan verməli olacaqlar. Yəni artıq işlərimizi qaydasına sala bilmişik. Tələbələr dərk edir ki, onların istifadə edə biləcəyi hər cür kənar vasitənin qarşısı alınıb, yeganə yol oxumaqdır. Bu gün hər kəs öz real qiymətini alır".

İmtahan Nəzarət qrupunun rəhbəri Pəri İsaqova təkcə qaydaları pozan tələbələr deyil, gecikən nəzarətçilərlə bağlı tədbir görüldüyünü də bildirdi: "Nəzarətçilərimiz gecikəndə, içəri buraxmırıq. Çünki bizim ehtiyatda olan nəzarətçilərimiz var. Gecikənləri onlarla əvəz edirik. Bu da işimizin keyfiyyətinə yaxşı təsir göstərir. İmtahan başlayan gündən indiyədək tələbələr tərəfindən müəyyən qayda pozuntuları qeydə alınıb. Onlar barəsində təqdimat yazılıb və nəticələri ləğv olunub. Nəzarətçilərimizin ayıqlığı nəticəsində tələbələr imtahan zalında hər hansı qanunsuz vasitədən istifadə edə bilmirlər. Bu məsələdə mühafizəçilərimiz Rusif Əhmədov və Xanım Ağayevanı xüsusi qeyd etmək istərdim".

Stomatologiya fakültəsinin dekan müavini Aysel Həşimova və Hərbi tibb fakültəsinin dekan müavini, tibb xidməti polkovniki Məharət Rzayev də tələbələrə yardımlarını əsirgəmirlər. Onlar sayta daxil olmaqda çətinlik çəkən, şifrə ilə bağlı problemlə üzləşən tələbələrə köməklik göstərirlər.

Nəzarətçilərdən Səbinə Əliyeva bu semestr imtahanların daha rahat keçdiyini, iş başında olduğu müddətdə heç bir qayda pozuntusuna rast gəlmədiyini bildirdi.

İmtahandan çıxan tələbələrin də fikirlərini öyrəndik. Stomatologiya fakültəsinin tələbələri Aydan Ələsgərova, Raziyyə Baxışova "Terapevtik stomatologiya" fənnindən imtahan verdiklərini, prosesin heç bir müdaxilə olmadan, obyektiv keçirildiyini qeyd etdilər.

Hərbi tibb fakültəsinin kursantı Məqsəd Hüseynov "Anatomiya" fənnindən imtahan verib. O, 36 bal toplayıb və nəticədən razıdır.

Stomatologiya fakültəsinin II kurs tələbəsi, İran vətəndaşı Armin Ruhi də razılıq edənlər sırasındadır. "Diş müalicəsinin əsasları" fənnindən imtahan verən Armin 43 bal topladığı üçün xeyli məmnundur. Əvvəlki imtahanlardan müvəffəqiyyət qazanıb, sonrakı imtahanları da problemsiz verəcəyinə əmindir. Deyir ki, Tibb Universitetində biliyə qiymət verildiyi üçün həmişə inamla imtahanlara hazırlaşıb, nəticəsini də görüb.

**Q.ABDULLAYEV**

# 20 Yanvar qırğınına həsr olunmuş tədbir keçirilib

## O faciəli hadisələr Azərbaycan tarixinə igidlik, qəhrəmanlıq səhifəsi kimi daxil olub

**Yanvarın 19-da Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında 20 Yanvar faciəsinin 33-cü ildönümünə həsr olunmuş tədbir keçirilib. Tədbir iştirakçıları əvvəlcə ölkəmizin azadlıq mübarizəsində canlarından keçənlərin xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.**





Sonra toplantını giriş nitqi ilə açan ATU-nun Tədris və müalicə işləri üzrə prorektoru, professor Sabir Əliyev bildirib ki, ölkəmizin hər yerində olduğu kimi, universitetimizdə də 20 Yanvar faciəsinin ümummilli hüzn günü kimi qeyd edilməsi artıq ənənə halını alıb. Lakin ötən illərdən fərqli olaraq, bu il ATU-nun rektoru, professor Gəray Gəraybəylinin göstərişinə əsasən, toplantıya professor- müəllim heyətinə nisbətən tələbələrin daha çox qatılması məqsədəuyğun hesab olunub.

S.Əliyev vurğulayıb ki, müxtəlif təbliğat vasitələrindən istifadə etməklə bu qanlı tariximizi gənc nəslin qan yaddaşına həkk etməliyik: "Biz o əzablı günlərin şahidi kimi bugünkü gəncliyi ətraflı məlumatlandırmalıyıq. Təsadüfi deyil ki, 44 günlük müharibədə qələbəmizi qeyd edərkən cənab Prezident İlham Əliyev çıxışında bildirdi ki, bu qələbəni mənim prezident olduğum dövrün gəncliyi qazandı".

Sözünə davam edən prorektor 20 Yanvar faciəsinin baş vermə səbəblərini və onun unudulmaz dəhşətlərini bir daha yada salaraq, həmin gün Azərbaycan xalqının cəsarətli övladlarının göstərdiyi şücaətləri xatırladıb: "Həmin hadisələrdən bizi 33 il ayırsa da, o dəhşətli günləri unutmaq mümkün deyil. Hətta qadınlarımız belə öz vətənlərini qorumaq üçün təpədən-dırnağa qədər silahlanmış sovet ordusunun qarşısına əliyalın çıxmışdılar. Odur ki, bu günə yas tutub ağlamamalıyıq. Çünki 20 Yanvar bizim tariximizə faciə ilə yanaşı, həm də igidlik, qəhrəmanlıq səhifəsi kimi daxil olub. Xalqımız öz canı-qanı bahasına azadlığına qovuşub".

Professor S.Əliyev o ağır günlərə ekskurs edərək həmin dövrdə sovet mediasının 20 Yanvarla bağlı tamamilə yanlış məlumatlar yaydığını qeyd edib. O, törədilən bu qanlı hadisələri Azərbaycan xalqına qarşı həyata keçirilən terror aktı və insanlığa qarşı ən ağır cinayətlərdən biri kimi qiymətləndirib: "Baş verənlər gizlədilirdi, deyirdilər ki, çox az sayda itki olub. Lakin ümummilli lider Heydər Əliyevin sayəsində dünya bu faciədən xəbər tuta bildi. Ulu öndər həyatını riskə ataraq ailə üzvləri ilə birgə Moskvada keçirdiyi mətbuat konfransında dünyanın nüfuzlu xəbər agentliklərinə bu haqda məlumat verdi".

Toplantıda çıxış edən ATU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Qoşqar İsmayılov ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 20 Yanvar hadisələrinə hüquqi-siyasi qiymət verildiyini xatırladıb və bu qanlı faciənin heç zaman unudulmayacağını bildirib. O, Azərbaycan xalqının müstəqillik uğrunda mübarizəsini təşkil edən və bu cür qanla yazılan tarixlərin yaşadılmasının əhəmiyyətini vurğulayıb, şəhidlərimizin xatirəsini yaşatmağın hər birimiz üçün vacib missiya olduğunu söyləyib.

Sonra ATU-nun bir qrup tələbəsinin 20 Yanvar hadisələrinə dair hazırladığı kiçik səhnəcik nümayiş olunub. Bundan başqa, tələbələrin ifasında bu qanlı faciənin ağrı-acılarını özündə əks etdirən şeirlər səsləndirilib.

# Heç vaxt unudulmayacaq 20 Yanvar faciəsi

## Qanlı hadisələrin şahidi olan əməkdaşlarımız həmin günlərdə neçə-neçə yaralının həyatını xilas edib

**Sovet qoşunlarının Azərbaycanda törətdiyi kütləvi qanlı qırğından – 20 Yanvar faciəsindən 33 il ötür. Hadisənin şahidləri o dəhşətli günləri indi də ürəkağrısı ilə xatırlayırlar.**

1990-ci il yanvarın 19-dan 20-nə keçən gecə öz həyatlarını təhlükə altına atan həkimlərimiz də böyük fədakarlıqla çoxsaylı yaralılara tibbi yardım göstərib, neçə-neçə həyat xilas ediblər. Bu prosesin iştirakçısı olan Azərbaycan Tibb Universitetinin əməkdaşları həmin günləri həyəcansız yada sala bilmir.

**Universitetin Ümumi cərrahlıq kafedrasının məsləhətçi-professoru, tibb elmləri doktoru Çərkəz Cəfərov** deyir ki, 20 Yanvar hadisəsi Azərbaycan tarixində misli görünməmiş qanlı bir faciə idi:



- Mən o zaman Bakı şəhərinin baş cərrahı vəzifəsində işləyirdim. Yanvarın 19-dan 20-nə keçən gecə evdə idim. Saat 1-ə işləmiş güllə səsləri eşitdim. Təcili Bakı Şəhər Səhiyyə İdarəsinə zəng etdim. Dəstəyi növbətçi götürdü. Bildirdi ki, rus qoşunları şəhərə daxil olub, qarşılarına çıxanı güllələyirlər. Elə dəstəyi yerinə qoymuşdum ki, Təcili Yardım Xəstəxanasında işləyən əməkdaşlardan biri zəng etdi. Xəstəxanada xeyli yaralı olduğunu, köməyimə ehtiyac olduğunu bildirdi. Mən o zaman "Beşmərtəbə"nin yanında yaşayırdım. Arxamca təcili yardım maşını gəldi. Elə yolla getməliydik ki, rus əsgərləri qarşımıza çıxıb bizi güllələməsin. Həyətlərin arası ilə məni xəstəxanaya gətirdilər. Ora çatanda gördüm ki, xeyli adam və yaralı var. Yataqxana yaxın olduğu üçün Tibb Universitetinin tələbələri də köməyə gəlmişdilər. Dəhliz belə yaralılarla dolu idi. 7 əməliyyat otağının hamısında əməliyyat aparılırdı. Xəstəxanaya baş, döş, qarın və ətraf yaralanmaları ilə yaralılar daxil olmuşdu. Təbii ki, gecə heç kim yatmadı. Mən 3 mərtəbənin arasında qalmışdım. Aşağı - Qəbul şöbəsinə düşür, yaralılara baxır, 2-3-cü mərtəbələrdə əməliyyat otaqlarında olur, həkim personalına tapşırıq və tövsiyələrimi verirdim. Yaxşı yadımdadır, həmin gün 109 yaralı qəbul etdim. SSRİ Dövlət Təhlükəsizlik Xidmətinin Boqdanov soyadlı bir əməkdaşı da ağır yaralanmışdı. Onu özüm əməliyyat etdim. Əməliyyata hazırlayan zaman dedi ki, həkim, məni özümünkülər güllələdi. Heç nəyə baxmadan hər kəsə atəş açırdılar. Onda aşağı vena, ağciyərin kökü tamamilə dağılmışdı. Əməliyyatdan 4 saat sonra dünyasını dəyişdi. Səhər tezdən xəstəxanada bir otaqda müxtəlif yaşlarda 29 meyit saydım. 3-4 gün xəstəxanadan çıxmadım. Rus qoşunları yanvarın 20-dən sonra da mülki vətəndaşlara atəş açırdılar. Xəstəxanaya yenə də yaralıları gətirirdilər. Aralarında həyatlarını xilas edə bilmədiyimiz, dünyasını dəyişənlər də oldu.

SSRİ-nin rəhbəri Mixail Qorbaçovun əli günahsız Azərbaycan xalqının qanına batdı. Həmkarlarımızdan – Bakı Şəhər Səhiyyə İdarəsinin Elçin adlı əməkdaşını da güllələyərək qətlə yetirmişdilər.

Universitetin I Cərrahi xəstəliklər kafedrasının əməkdaşları da əllərindən gələni edib, neçə yaralını ölümün cəngindən xilas ediblər. **Professor Saday Əliyev** rus qoşunları tərəfindən millətimizin başına gətirilən faciəni heç vaxt unutmur:



- Təcili Yardım Xəstəxanasında yaralıların əlindən tərpənmək olmurdu. Yaralıların vəziyyəti stabilləşənədək onlara tibbi yardım göstərdik. Bizim xəstəxana Bakıdakı digər xəstəxanalardan fərqli olaraq, bir növ qərargah rolunu oynayır, təxliyə hospitalı kimi fəaliyyət göstərirdi. Yaralananların əksəriyyətində müalicə ərəfəsində bir sıra ağırlaşmalar və psixoloji dəyişikliklər müşahidə olunduğundan, sonrakı 3-4 ay da onların reablitasiyası ilə məşğul olduq.

**Dosent Səxavət Rəfiyev** 20 yanvar gecəsini belə xatırlayır:



- Yanvarın 19-u gecə Əhmədli qəsəbəsində evimdə idim. Axşam saat 10-11 arası baş həkim Cahangir Hüseynov zəng etdi. Bildirdi ki, çoxlu yaralı gətiriblər, təcili xəstəxanaya gəlim. "Əhmədli" stansiyasından metroya daxil oldum. Qatarlar "Gənclik" stansiyasınadək işləyirdi. "Gənclik"-dən çıxıb piyada xəstəxanaya gəldim. Küçədə hər kəsə güllə atdıqlarına görə, gizlənə-gizlənə özümü xəstəxanaya çatdırdım. Xəstəxananın həyətindəki hovuzun ətrafına xeyli adam toplanmışdı. İlk dəfə gördüm ki, qan necə axaraq kanalizasiyaya tökülür... Əməliyyat otağına getdim. Həkim Ədalət Rüstəmi gördüm. Döş qəfəsindən yaralanmış xəstəni əməliyyata hazırlayırdı. Onunla bir neçə əməliyyat etdik. Gecə gördüklərim mənə o qədər mənfi təsir etmişdi ki, təzyiqim 200-dən yuxarı qalxmışdı. Məni buna görə terapevtik korpusda yerləşdirdilər. Həmin günlər xeyli yaralının həyatını xilas edə bildik.

Onu da deyim ki, bu hadisələrdən sonra 12 və 9 yaşlarındakı övladlarım Vüqar və Fərid etiraz olaraq, rus bölməsində təhsil almaqdan imtina etdilər.

**Dosent Faiq Qapaqov:**



- Gecə idi. Küçədən səs-küy, atışma səsləri eşidilirdi. Səhərədək yata bilmədim. Səhər işə gələndə xəstəxanada çoxlu yaralılar var idi. 3 gün xəstəxanada qaldım. Fasiləsiz işləyirdik. 15 yaşlı bir oğlana küçədə getdiyi yerdə atəş açmışdılar, sidik kisəsi dağılmışdı. Əməliyyat etdim, həyata qayıtdı. Ağstafadan bir yaşlı kişini də əməliyyat etdim. Gecə çıxıb oğlunu axtarırmış. "Salyanski kazarma"ya yaxın ərazidə güllələmişdilər. Bağırsaqları ciddi zədələnmişdi. Təəssüf ki, dünyasını dəyişdi.

**Dosent Ədalət Rüstəm:**



- O vaxt 29 yaşım var idi. Kafedranın klinik ordinatoru idim. Həmkarım Qafar İsgəndərovla yanvarın 19-da "Salyanski kazarma"nın qarşısına getdik. Ruslar fırlanan güllələrdən istifadə edirdilər. Qəlpələr yuxarı qalxır, aşağı enəndə insanlara dəyir, yaralayırdı. Birdən arxamda olan bir nəfər qışqırdı ki, məni vurdular. Güllə mənim başımın üstündən keçib, hündür bir oğlanın sinəsini deşmişdi. Onu ətrafdakı insanların köməyi ilə "Moskviç" markalı avtomobilə qoyub, Təcili Tibbi Yardım Xəstəxanasına çatdırdıq. Orada çoxsaylı yaralılar gördük. Dəhliz büsbütün qan içərisində idi. Baş həkim Cahangir Hüseynov yaralıların çeşidlənməsi ilə məşğul idi. Bir neçə əməliyyat apardım və əməliyyatlara kömək etdim. Gecə 2-nin yarısında işıqlar söndü. Buna görə narkoz aparatlarının fəaliyyəti dayandı. Başladıq əllə işləməyə. Tələbələr kağız yandırdılar, yaxınlıqda yaşayan insanlar şam gətirdilər. Kağız və şam işığına əməliyyat apardıq. Sonra xəstəxananın generatoru işə salındı.

Professor Çərkəz Cəfərov əməliyyatlara rəhbərlik edirdi. Professor Akim Muxtarov da o gecə əlindən gələni etdi.

Yanvarın 23-ə qədər xəstəxanada qaldım. Sonra qardaşımgilə piyada getməli oldum. Axşamtərəfi saat 5-6 radələrində Nəsimi AXC-nin qərargahı qarşısında xeyli insan toplaşmışdı. Əlimdə 41 nəfər şəhid olanların ad və soyadları var idi. Siyahını onlara verdim. Gözlənilmədən rus hərbçilər gəldi. Bizi indiki Nəsimi Polis İdarəsinə apardılar. Axşam saat 7-dən səhər saat 6-dək orada saxladılar. Kim yuxulayırdısa, dəyənəklə vurub oyadır, işgəncə verirdilər. Səhər bir polkovnik gəldi, bizdən kim olduğumuzu soruşdu. Biləndə ki Tibb Universitetində çalışıram, komendant Lebedin yanına daxil oldu. Sonra gəldi məni və başqa bir nəfəri onun yanına apardı və dedi ki, bunlar universitetdə dərs deyirlər. Bunlardan ekstremist, terrorçu olar? Bizi azad etdi. Sonra bildim ki, həmin şəxs Nəsimi Rayon Polis İdarəsinin rəisi imiş.

O faciəli günlər yaddaşımda elə dərin iz buraxıb ki, heç vaxt xatirimdən çıxan deyil.

**Qabil ZİMİSTANOĞLU**

# Biokimya sahəsində tanınmış alim

## Professor Arif Əfəndiyevin 80 illik yubileyi münasibətilə konfrans keçirilib





**Yanvarın 27-də Azərbaycan Tibb Universitetinin Bioloji kimya kafedrasının məsləhətçi professoru, əməkdar müəllim, biologiya elmləri doktoru, professor Arif Mustafa oğlu Əfəndiyevin 80 illik yubileyi münasibətilə "Biokimya və təbabətin aktual problemləri" mövzusunda elmi-praktik konfrans keçirilib. Konfransı açıq elan edən universitetin Elmi işlər üzrə prorektoru, t.e.d. Rauf Bəylərov yubilyarın həyat yolu və elmi fəaliyyəti haqqında qısa arayış verib, onun 58 il ərzində çalışdığı kafedrada biokimya elminə gətirdiyi bir sıra yeniliklərdən söhbət açıb.**

Toplantıda çıxış edən millət vəkili Tamam Cəfərova qədimdən şairlər, ziyalılar diyarı olan Şamaxının xalqımıza böyük şəxsiyyətlər bəxş etdiyini və onların hər zaman xalqımızın fəxri sayıldığını vurğulayıb. Belə insanlardan birinin də ömrünün müdriklik çağını yaşayan istedadlı alim, vətənpərvər ziyalı Arif Əfəndiyev olduğunu söyləyib.

Yubilyarın həyatı və fəaliyyəti haqqında geniş məlumat verən Bioloji kimya kafedrasının müdiri, professor Gülnarə Əzizova bildirib ki, Arif Əfəndiyev 1943-cü il yanvarın 1-də Şamaxı rayonunda ziyalı ailəsində anadan olub: "Onun atası Mustafa Məhyəddin oğlu ixtisasca mühəndis-neftçi idi. Keçən əsrin 30-cu illərində Stalin repressiyasının ölkədə tüğyan etdiyi dövrdə əsassız təqib olunan Mustafa Məhyəddin oğlu çox sevdiyi işindən ayrılaraq, həyat yoldaşı Səkinə xanımla Şamaxı rayonuna köçür. Bir müddət ailəsi ilə birlikdə Səkinə xanımın baş həkim vəzifəsində işlədiyi Çuxuryurd kəndində yaşayır. 1946-cı ildə Mustafa kişi Bakı şəhərinə dönərək neftçıxarma idarəsinin rəisi vəzifəsində fəaliyyətini davam etdirir. 1959-cu ildə Azərbaycan Dövlət Tibb İnstitutunun Əczaçılıq fakültəsinə daxil olan gənc Arif 1966-cı ildə aspiranturaya qəbul edilir və elə o illərdən başlayaraq həm də kafedrada əvəzçilik üzrə tədris işləri ilə məşğul olur. 1969-cu ildə aspiranturа təhsili başa çatan A.Əfəndiyev Bioloji kimya kafedrasının assistenti vəzifəsinə qəbul olunur".

Sözünə davam edən məruzəçi vurğulayıb ki, Arif müəllim 1974-cü ildən kafedranın dosenti vəzifəsinə seçilib, 1981-1984-cü illərdə kafedranın müdiri vəzifəsini icra edib. Həmin illər ərzində intensiv elmi-tədqiqat işləri aparan A.Əfəndiyev 1986-cı ildə doktorluq dissertasiyası üzərində işini tamamlayaraq, Moskvada müdafiə edir. O, 1987-ci ildə Bioloji kimya kafedrasının müdiri vəzifəsinə seçilir, 1989-cu ildə professor elmi adı alır. A.Əfəndiyev 1988-1994-cü illərdə I Müalicə-profilaktika və Əczaçılıq fakültələrinin dekanı vəzifəsində işləyib. Bu gün kafedrada çalışan əməkdaşların əksəriyyəti onun rəhbərliyi altında elmi-pedaqoji kadr kimi yetişən şəxslərdir. İndiyə qədər onun rəhbərliyi altında 28 namizədlik (fəlsəfə doktorluğu) və 3 doktorluq dissertasiyası işlənərək müdafiə olunub, hazırda 5 dissertasiya işi üzrə tədqiqatlar davam etdirilir.

Professor A.Əfəndiyev 2000-ci ildə Avropa Biokimyaçılar Cəmiyyətləri Konfederasiyasında təşkil edilmiş «Biokimyanın tədrisi» komissiyasının MDB ölkələrindən seçilmiş yeganə üzvüdür. O, uzun müddət respublika biokimyaçılar cəmiyyətinin elmi katibi vəzifəsini yerinə yetirib. Onun fədakar əməyi ölkə rəhbərliyinin də diqqətindən yayınmayıb və 1984-cü ildə SSRİ "Səhiyyə əlaçısı" döş nişanına, 2010-cu ildə isə "Əməkdar müəllim" fəxri adına layiq görülüb.

Professor A.Əfəndiyevlə bağlı ürək sözlərini bölüşən ATU-nun Tədris və müalicə işləri üzrə prorektoru, professor Sabir Əliyev, professor Vaqif Şadlinski, dosent Rəşid Mahmudov, bəstəkar Vaqif Gərayzadə və başqaları yubilyarı uzun illərdir tanıdıqlarını dilə gətiriblər. Onun insani keyfiyyətlərindən danışan natiqlər bildiriblər ki, Arif müəllim elmdə tanınmış alim olduğu kimi, həyatda da sadiq dost, bacarıqlı təşkilatçı və gözəl ailə başçısıdır.

A.Əfəndiyevin yaxın qohumu, BDU-nun professoru Rafiq Həsənov çıxışında qeyd edib ki, həyatda qazandığı hörmətdən stimul alan Arif müəllim bu yaşında da sağlam və gümrah olmaqla yanaşı, həm də böyük səylə elmi yaradıcılığını və pedaqoji fəaliyyətini davam etdirir.

Tədbirdə yubilyara müxtəlif hədiyyələr təqdim edilib və onun ömür yolundan, həmçinin elmi yaradıcılığından bəhs edən sənədli film nümayiş olunub.

Sonra professor Arif Əfəndiyev tədbirin təşkilinə görə ATU-nun rektoru, professor Gəray Gəraybəyliyə, bu işdə əziyyəti olan doğma kollektivə və eləcə də tədbir iştirakçılarının hər birinə minnətdarlıq edib.

Elmi-praktik konfransın ikinci hissəsində isə universitet əməkdaşları və digər qurumları təmsil edən tanınmış mütəxəssislər elmi məruzələrlə çıxış ediblər.

# Tibb bacıları üçün seminarlara start verilib



**Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasında tibb bacıları üçün "Təməl Yaşam Dəstəyi" seminarlarına start verilib.**

Klinikanın Təcili Yardım şöbəsinin müdiri Cavanşir Məhərrəmovun sözlərinə görə, bu tip seminarlar bütün ölkələrdə aparılır: "Bu cür seminarların keçirilməsi olduqca vacibdir. Məqsədimiz tibb bacılarımıza dəstək vermək, yenilikləri aşılmaq, bu ixtisasın vacibliyi haqqında maarifləndirmə işi aparmaqdır. Çünki xəstənin sağalmasında həkim qədər tibb bacısının da rolu var. Tibb bacıları peşə etikası qaydalarına hər zaman riayət etməli, peşəkar tibb bacısı olmaq üçün zəruri bilik və bacarıqlarını daim artırmalıdırlar. Bu ixtisas üzrə təhsil alan tələbələr daha çox komanda şəklində işləmək bacarığı qazanmalıdırlar. "Təməl Yaşam Dəstəyi" kursumuzda da ən əsas, ilk növbədə göstərilməli olan yardımlar haqqında danışılır, bu sistem iştirakçılara öyrədilir".

Qeyd edək ki, ATU-da artıq 3 ildir ki, tibb bacısı ixtisası yaradılıb.

# Əməkdaşımızın məqaləsi xarici nəşrdə

**ATU-nun klinikaları yalnız müalicə müəssisəsi kimi deyil, həm də tədris bazası kimi fəaliyyət göstərir. Ona görə də burada çalışan həkimlər praktiki fəaliyyətlə yanaşı, elmi-tədqiqat işlərinə də xüsusi önəm verir, tibbin müxtəlif sahələrinə dair elmi məqalələrini yerli və xarici nəşrlərdə vaxtaşırı dərc etdirirlər.**

Redaksiyamıza daxil olan məlumata görə, bu günlərdə daha bir əməkdaşımızın məqaləsi xarici nəşrdə çap edilib. Belə ki, Tədris Terapevtik Klinikanın həkim-kardioloqu, Kliniki farmakologiya kafedrasının dosenti, tibb elmləri doktoru Sona Qəhrəmanovanın məqaləsi əvvəlcə Scopus nəşriyyat bazasının siyahısında olan impakt faktorlu jurnalda işıq üzü görüb və böyük maraq doğurub. Belə ki, maraqlı klinik araşdırmalara əsaslanaraq arterial hipertenziyanın yaranma mexanizmlərinə, profilaktikasına, həmçinin D vitamininin orqanizmdə rolu, arterial hipertenziyaya təsirinə həsr olunan məqalə jurnalda dərc edildikdən sonra müəllifin ünvanına beynəlxalq təşkilatlardan müxtəlif müraciətlər gəlib. O bu aktual mövzu ətrafında ayrı-ayrı konfranslarda çıxış etmək təklifi alıb.

Professor Madhu Khulların təklifi və redaksiya heyətinin qərarı ilə əməkdaşımızın məqaləsi İngiltərədə dərc olunan məqalələr toplusuna da daxil edilib və 6 bölümdən ibarət toplunun bir bölümünü təşkil edib. Məqalədə arterial hipertenziya və D vitaminindən əlavə, ateroskleroza, eyni zamanda digər kardiovaskulyar xəstəliklərə, ürəyin işemik xəstəliyinə, aritmiyaya, xroniki ürək çatışmazlığına təsir göstərən digər amillərdən də bəhs edilir. Xarici tələbələr üçün ingilis dilində yazılmış bu vəsaitdən kardioloqlar və terapevtlər də gündəlik fəaliyyətlərində istifadə edə bilərlər.

Bölümün sonunda tədqiqat işinin Azərbaycandan göndərildiyi, müəllifin Azərbaycan Tibb Universitetini təmsil etdiyi qeyd olunub.

# Tədris Terapevtik Klinikanın şöbə müdiri beynəlxalq konqresdə çıxış edib




**Türkiyənin Antalya şəhərində ənənəvi olaraq hər il keçirilən Beynəlxalq Hematoloji Konqres baş tutub. 48-ci konqresə Avropanın bir çox ölkələri, o cümlədən ABŞ-la yanaşı, Azərbaycandan da bu sahədə çalışan mütəxəssislər qatılıblar.**

Bu nüfuzlu tədbirin poster hissəsində Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasının Hematologiya şöbəsinin rəhbəri Şəhla Şabanova "Xronik limfositar leykoz mimikriyası edən bir Valdenstrom Makroqlobulinemiyası xəstəsi" adlı elmi məqalə ilə çıxış edib.

Beş gün davam edən beynəlxalq konqres mövzuların aktuallığı və iştirakçıların geniş tərkibi baxımından əvvəlkilərdən seçilib. Müasir hematologiyaya yaxınlaşma, həmçinin bu elm sahəsinin diaqnostika və müalicə prinsiplərini bütövlükdə əhatə edən konqres, iştirakçılar üçün əhəmiyyətli olub.

"Təbib" qəzetinə məlumat verən Şəhla Şabanova bildirib ki, ümumiyyətlə, ötən ilin son ayları ölkə hematoloqları üçün yaddaqalan və səmərəli olub. Belə ki, həmin dövrdə Azərbaycan Hematoloji Mütəxəssisləri İctimai Birliyinin rəhbəri, tibb üzrə fəlsəfə doktoru Valeh Hüseynovun təşkilatçılığı ilə II Azərbaycan Hematoloji Mütəxəssisləri Konfransı təşkil edilib. Xarici ölkələrdən də bir çox tanınmış hematoloqların toplandığı bu tədbir hibrid formada baş tutub. Həmin konfransda dr. Ş.Şabanova "Valdenstrom Makroqlobulinemi və müalicəsində ən son yeniliklər" mövzusunda çıxış edib.

**ATU-nun Tədris Cərrahiyyə Klinikasının direktoru, professor Mücahit Avcilin təşəbbüsü ilə genetika üzrə tanınmış türkiyəli mütəxəssis, professor Zeynep Ocak klinikanın həkimləri və rezidentləri üçün treninq keçib.**

# Genetika üzrə tanınmış mütəxəssis Tədris Cərrahiyyə Klinikasında

Təlim üçün seçilən mövzu təsadüfi deyil. Belə ki, son vaxtlarda genetik xəstəliklərin çoxalması və bu sahədə müəyyən bilgisizlik mövzunun aktuallığını bir daha gündəmə gətirib. Maarifləndirmə məqsədilə keçirilən tədbirdə genetik xəstəliklər, həmin xəstəlikləri aşkarlamaq üçün test metodları, ailə qurmağa hazırlaşan şəxslərdən götürülməsi vacib olan analizlər barədə ətraflı məlumat verilib.

Professor Z.Ocak genetik problemlər haqqında ailələrin öncədən bilgili olmasının vacibliyini vurğulayıb. Onun sözlərinə görə, ancaq bu halda qabaqlayıcı tədbirlər görmək və genetik xəstəliklərin qarşısını əvvəlcədən almaq mümkündür.

Genetikanın bütün ixtisasları əhatə etdiyini deyən mütəxəssis bildirib ki, ginekologiya, kardiologiya, pediatriya və digər sahələrdə də genetik yönümlü problemlər mövcuddur. Ona görə də bu tip problemlərin aradan qaldırılması üçün ilk növbədə genetiklərə müraciət etmək lazımdır.




Təlimdə xromosom və gen xəstəliklərinə ayrılıqda toxunulub və bildirilib ki, genlərin sayı xromosomlarımızın sayından dəfələrlə çox olduğu üçün gen xəstəliklərinin sayı da çoxdur.

Təlim zamanı genetik testlərin yüksək dərəcədə inkişaf etdiyi də diqqətə çatdırılıb. Qeyd edilib ki, dölə aid genetik nümunə götürmək üçün dölə heç bir invaziv müdaxilə etmədən ana qanından fetal DNT-ni belə ayırmaq olur. Bu cür testlərə "non-invasive test" (NİPT) deyilir və hamiləliyin 10-cu həftəsindən etibarən götürülə bilər. Bundan əlavə, ana, ata və döldən üçlü analiz götürməklə ana bətnində olan dölün talassemiya daşıyıcısı və ya xəstəsi olmasını bilmək mümkündür.

Genetik testlərin diaqnozu aydınlaşdırmağa və ya mümkün bir xəstəliyin qarşısını almağa kömək edəcəyini, hər bir kəsin ailə qurmamışdan öncə genetik testdən keçməsinin zəruriliyini söyləyən professor, sonda təlim iştirakçılarının suallarını cavablandırıb.

# Orqanizmə heç bir mənfi təsir göstərməyən ideal anestetik yoxdur

## İsrail Məhərrəmbəyli: Xəstə düzgün dəyərləndirilmədikdə və anesteziyaönü hazırlıq zəif olduqda, ciddi fəsadlar meydana çıxır

**ATU-nun II Müalicə-profilaktika fakültəsinin dekanı, Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti İsrail Məhərrəmbəyli anesteziya öncəsi müayinələr, anesteziyanın insan orqanizminə yan təsirləri ilə bağlı sualları cavablandırıb. Müsahibəni təqdim edirik:**



**- Əməliyyat zamanı anestezioloqun işi nədən ibarətdir?**

- Anestezioloq xəstənin cərrahi əməliyyata hazırlanmasına, əməliyyatın gedişi zamanı orqan və sistemlərə nəzarət və eyni zamanda onlarda yaranan dəyişikliklərin korreksiyasına məsuliyyətlidir. Bunu nəzərə alaraq, cərrahi əməliyyat otağında anesteziyada istifadə edilən aparatların, alətlərin işlək vəziyyətdə olmasına ciddi nəzarət etməlidir. Əməliyyat zamanı anestezioloq müşahidə aparatlarını diqqətlə izləməli, xəstədə baş verən hansısa bir dəyişikliyə tez reaksiya verməlidir. Eyni zamanda, əməliyyatdan sonrakı yaxın dövrdə xəstənin vəziyyəti anestezioloqun nəzarəti altında olmalıdır.

**- Anesteziya öncəsi hansı müayinələr tələb olunur?**

- Qeyd etməliyik ki, əməliyyat olunan və anesteziya ala biləcək hər bir xəstə anesteziyaönü hazırlıqdan keçməlidir. Bura xəstəyə anestezioloqun baxışı, xəstənin laborator və funksional müayinələrinin dəyərləndirilməsi, anestezioloji riskin qiymətləndirilməsi daxildir. Anesteziya ala biləcək hər bir xəstədə standart müayinələrin (qanın ümumi, biokimyəvi analizi, qanın laxtalanma göstəricilərinin təyini, sidiyin analizi, EKQ, döş qəfəsinin rentgen və müvafiq ultrasəs müayinəsi) aparılması vacib sayılır. Bundan başqa, anestezioloq tərəfindən lazım bilinən müayinələrin əlavə edilməsi mümkündür. Eyni zamanda, digər orqan və sistemlərin klinik qiymətləndirilməsi də anesteziyaönü müayinələrin tərkib hissəsi sayılır. Təbii ki, xəstənin əməliyyat öncəsi vəziyyətinin düzgün kliniki və laborator qiymətləndirilməsi anestezioloji cərrahi riskin düzgün seçilməsinə zəmin yaradır və anesteziya zamanı hər hansı insidentin başvermə ehtimalını azaldır.

**- Anesteziyanın yan təsirləri varmı?**

- Təbii ki, hər bir manipulyasiyanın mənfi təsirləri olduğu kimi, anesteziyanın da orqanizmə müəyyən qədər yan təsirləri var. Bu yan təsirlər əsasən orqanizmin somatik durumu və tətbiq olunan anestetiklərin farmokodinamik effektlərindən asılıdır. Anestezioloqun peşəkarlığı xəstənin vəziyyətinin düzgün qiymətləndirilməsinə, anesteziya növünün və anestetiklərin düzgün seçilməsinə bağlıdır. Bu baxımdan, hər bir anestezioloq anesteziya zamanı yan təsirləri az olan və az toksiki təsirə malik anestetiklərin seçilməsinə üstünlük verir. Müasir dövrdə çoxçeşidli anestetiklərin olmasına baxmayaraq, təəssüf ki, orqanizmə heç bir mənfi təsir göstərməyən ideal anestetik yoxdur.

**- Spinal anesteziya nədir və onun hansı üstünlükləri var?**

- Spinal anesteziya huşun saxlanması ilə müşahidə olunan yerli anesteziyanın bir növüdür. Bu gün istifadə edilən spinal anesteziya ilk dəfə 1897-ci il avqustun 16-da Avqust Bir tərəfindən tətbiq edilib. Hazırda geniş tətbiq olunan bir anesteziya növüdür, əsasən ginekoloji və aşağı ətrafların travmatoloji əməliyyatlarında geniş istifadə olunur. Üstünlüyü odur ki, huşu və spontan tənəffüsü pozmur. Spinal anesteziyaya göstəriş anestezioloq tərəfindən təyin olunur. Az maliyyə xərcləri tələb edən və əməliyyat zamanı az yan təsirlərə malik anesteziya növü kimi tanınır. Lakin xəstə düzgün dəyərləndirilmədikdə və anesteziyaönü hazırlıq zəif olduqda, bu növ anesteziyanın da ciddi fəsadları meydana çıxır.

# Müalicə prosesində laborator analizlərin müstəsna rolu var

## ATU-nun Onkoloji Klinikasında laborator diaqnostikanın bütün mərhələləri operativ və dəqiq həyata keçirilir

**Həkimlərin xəstələrin müalicəsini düzgün aparmasında laborator analizlərin müstəsna rolu var. Dəqiq analizlərin aparılması isə müasir cihazlarla yanaşı, həkim peşəkarlığından da çox asılıdır.**

Bəs bu baxımdan, Azərbaycan Tibb Universitetinin Onkoloji Klinikasının Klinik Diaqnostik Laboratoriyasında vəziyyət necədir? Burada hansı analizlərin aparılması mümkündür?



Laboratoriyanın müdiri Taleh Əliyevin bildirdiyinə görə, laboratoriya yeni binada 2014-cü ildən etibarən fəaliyyət göstərir: "Fəaliyyətimizi müasir laboratoriya idarəetmə alqoritmi əsasında qurmuşuq. Laboratoriyamız LİS (Laboratoriya İdarəetmə Sistemi) proqramı ilə təchiz olunub və laborator diaqnostikanın bütün mərhələləri – pre-analitik, analitik və post-analitik mərhələlər tamamilə avtomatlaşdırılıb və elektronlaşdırılıb. Yeni xəstələr qeydiyyat bölməsində qeydiyyata düşür. Ad və soyadlarla barkordlar vakuumlu qanalma sınaq şüşələrinin üzərinə yapışdırılır. Çünki hər sınaq şüşəsinin özünün təyinatı var. Qəbul bölməsində nümunə qəbul edilir, çeşidlənir, sentrifuqasiyadan keçirilir və hər bölməyə uyğun olaraq qan nümunələri paylanır".



T.Əliyevin sözlərinə görə, laboratoriyada 5 bölmə - hematoloji, hemostaz, biokimyəvi, immunoloji və mikroskopiya bölməsi fəaliyyət göstərir. Adıçəkilən bölmələrdə qanın ümumi analizi, hematoloji, biokimyəvi və immunoloji müayinələr aparılır: "Həkimlər proqram üzərindən müvafiq laborator bölmədə hansı xəstənin olduğunu görürlər. Çünki cihazlar birbaşa sistemə bağlıdır. Əl əməyindən istifadə olunmadığı üçün müayinə zamanı xəta payı da xeyli aşağı düşüb. Sistem avtomatlaşdırıldığından, müayinələrin nəticələri 10-15 dəqiqədən başlayaraq 3-4 saatadək verilir. Qanın ümumi analizini 10-15 dəqiqəyə, biokimyəvi müayinələri bir neçə saata, immunoloji müayinələri isə 3-4 saata yekunlaşdırmaq olur. Qanın ümumi analizini aparan cihaz bir saata 60 cavab vermək imkanına malikdir. Bir sözlə, günün birinci yarısınadək, yəni saat 2-dək götürdüyümüz bütün müayinələrin cavabı həmin gün hazır olur".

T.Əliyev onun rəhbərlik etdiyi laboratoriyada klinikanın tələbatına uyğun olaraq, yalnız onkoloji profilli xəstəliklər üzrə müraciət edən pasiyentlərdən müayinələrin götürüldüyünü diqqətə çatdırıb. Bildirib ki, xəstələrin başqa müayinələrdən keçməsinə zərurət yarandıqda, onlar universitetimizin digər klinikalarına yönləndirilir.

Bölmələrlə də tanış oluruq. Hər bir bölmə müasir cihazlarla təmin edilib. Manual üsullardan istifadə olunmadığı üçün müayinənin nəticələrini müəyyən etmək xeyli asanlaşıb.

Həkim Vüsalə Xəlilovanın dediyinə görə, onun çalışdığı bölmədə sidik nümunələrinin biokimyəvi və mikroskopik müayinələri icra olunur: "Bununla biz xəstədə hansısa patologiyanın olub-olmamasını müəyyən edirik. Sonra isə müayinənin nəticələrini sistemə daxil etməklə müalicə həkiminə ötürürük. O da nəticəyə uyğun olaraq xəstənin diaqnozunu müəyyən edir və müalicə yazır".

Laboratoriyanın gözləmə zalında pasiyentlərlə həmsöhbət oluruq. Onların arasında müayinəyə təkrar gələnlər də var. Həm klinikadan, həm də müayinənin nəticələrindən razı qaldıqlarını bildirirlər.

Laboratoriyanın müdiri bir maraqlı məqama da toxunur: "Universitet klinikası olduğumuz üçün laboratoriyamızda əldə edilən nəticələrin mütəmadi statistik təhlili aparılır. Bu məlumatlar həm laboratoriya mütəxəssisləri, həm də onkoloqlar tərəfindən elmi tədqiqatlarda istifadə olunur. Bu isə öz növbəsində, bizi göstərdiyimiz xidmətlərdə daha məsuliyyətli olmağa sövq edir".

**Hər mövsüm milyonlarla insan qrip virusuna yoluxur. Bu bəzi insanlar üçün yüngül xəstəlik olsa da, yaşlılar, xüsusilə diabet və ya ürək xəstəliyi kimi sağlamlıq problemləri olanlarda təhlükə doğura bilir. Bəs qrip və mövsümü respirator infeksiyalardan necə qorunmaq lazımdır? Bu suala aydınlıq gətirmək üçün ATU-nun Yoluxucu xəstəliklər kafedrasının dosenti Ələsgər Vəliyevə müraciət etdik.**

# Niyə qrip tez yayılır?

## Mütəxəssis qrip və mövsümü respirator infeksiyalardan qorunmağın yollarını açıqlayır



Həkimin sözlərinə görə, qrip və ona bənzər respirator infeksiyalar - paraqrap, adenovirus infeksiyalari və s. həm nəzəri, həm də praktik təbabətin daimi problemi olaraq qalır: "Bütün cəhdlərə baxmayaraq, onlara qarşı tam effektli vaksin hazırlamaq hələ ki mümkün olmayıb. Respirator infeksiyaların ən ağır forması olan qrip (koronavirus infeksiyası, legionelloz daxil olmaqla) vaxtaşırı epidemiya, bəzən hətta pandemiyaya keçərək ölkələr üçün böyük iqtisadi, humanitar problemlər yaradır. Qriplə təkrar xəstələnmələrin əsas səbəbi onun törədicisinin antigen quruluşunun dəyişkənliyi, əhali arasında yeni antigen variantına qarşı immun müdafiənin olmamasıdır. Bununla yanaşı, qripin yayılmasında heyvan qripinin (donuz, quş) törədicilərinin mutasiyası, insan orqanizminə təsir edən iqlim, yaşayış şəraiti, vitamin çatışmazlığı da rol oynayır. Soyuqdəymə, qapalı yerdə çox qalmaq, bədən tərbiyəsi ilə məşğul olmamaq qriplə xəstələnmə riskini xeyli artırır".

Sözünə davam edən mütəxəssis bildirib ki, tipik respirator və antroponoz xəstəlik olduğu üçün qripi bilavasitə xəstələr, xüsusilə yataq rejiminə (təcrid olunma) əməl etməyən şəxslər yayır: "Qrip və digər respirator infeksiyaların törədiciləri əsasən yuxarı tənəffüs yollarında dəyişikliklər törədir və asqırma, öskürmə, hətta danışıq zamanı selik damcıları ilə 1.5-2 metr məsafəyə yayılırlar. Belə asan yoluxma mexanizmi sayəsində bir xəstə qısa müddət ərzində yüzlərlə adamı yoluxdura bilir. Məhz buna görə də qrip sürətlə yayılır, mövsümi (payız, yaz) epidemiyalar, bəzən mövsümdən asılı olmayan pandemiyalar verir. Qripin geniş yayılmasının bir səbəbi də xəstələnmənin erkən müəyyən edilməməsidir.

Təəssüf ki, başlanğıc əlamətləri qızdırma, üşütmə, baş və boğaz ağrısı olan əksər kəskin infeksion xəstəliklər əvvəlcə qrip (kəskin respirator infeksiya) adlandırılır. Buna səbəb qripin meningit, malyariya, qarın yatalağı, legionelloz, bruselloz və s. xəstəliklər kimi başlamasıdır".

Həkim qeyd edib ki, klassik hallarda qrip də yuxarıdakı infeksion xəstəliklərin əlamətləri ilə başlayır: "Lakin 1-2 gün ərzində kataral əlamətlər - boğazın, damağın quruması, quru öskürək, burun tənəffüsünün çətinləşməsi, sonra bəlğəmli (selikli) öskürək, burun seliyinin və göz yaşının çoxalması əlavə olunur. Xəstənin vəziyyəti tez pisləşir, alın, qaşüstü nahiyələrdə, göz dibində, əzələ və oynaqlarda ağrı, iştahasızlıq, dad və iy hissinin pozulması baş verir. Bununla yanaşı, qripin ancaq kataral əlamətlərlə təzahür edən yüngül və güclü intoksikasiya verən ağır, fulminant formalarına da rast gəlinir.

Qripin qorxulu ağırlaşmalar (meningit, pnevmoniya, sinusitlər) verməməsi üçün ən vacib tədbir azı 5 gün yataqda qalmaq, çoxlu isti-ilıq mayelər, mürəbbəli, ətirli otlarla çay, meyvə şirələri içmək, duru xörəklər yemək məsləhət görülür. Ən vacib tədbirlərdən biri də evə həkim çağırmaq, onun məsləhəti ilə müalicə qəbul etməkdir. Qripin müalicəsi üçün məsləhət görülən antiviral preparatlar ancaq ilk 1-3 gün ərzində qəbul edildikdə, yəni virusemiya dövrü effektli olur. Bədən hərarəti 39C-dən yuxarı qalxdıqda və bu, xəstənin vəziyyətinə pis təsir etdikdə, hərarətsalıcı həblər məsləhət görülür. Lakin orqanizmin müdafiə reaksiyası olan qızdırmanı sürətlə endirmək iltihab ağırlaşmalarına səbəb ola bilər. Yalnız belə ağırlaşmalar zamanı antibiotiklər təyin edilməlidir".

# Universitetimizin idman həyatı

## “Təbib” idman klubunda 14 idman növü üzrə bölmələr fəaliyyət göstərir

**Uzun illərdir mövcud olan ATU-nun Bədən tərbiyəsi kafedrası 2015-ci ildən öz fəaliyyətini “Təbib” idman klubu kimi davam etdirir. Klubun nəzdində müxtəlif idman bölmələri, tələbələr üçün fakültətiv məşğələlər təşkil olunur. Həmçinin burada Hərbi tibb fakültəsinin tələbələri və feldşerlər akademik dərs keçirlər. İdman kompleksinin 11 zalı, böyük hovuzu tələbələrin istifadəsindədir.**



Lakin 1982-ci ildən fəaliyyət göstərən idman kompleksində cari təmirlər olsa da, indiyədək əsaslı təmir aparılmayıb. Müvəqqəti bağlanan hovuzun da əsaslı təmirə ehtiyacı var. Bu çətinliklərə baxmayaraq, kompleksdə mövcud şəraitə uyğun olaraq vaxtaşırı idman tədbirləri həyata keçirilir. Hazırda 14 idman növü üzrə bölmələr fəaliyyət göstərir.



Bunları qəzetimizə açıqlamasında klubun müdiri, beynəlxalq dərəcəli hakim Qələndər Aslanov deyib. O, klubda basketbol, voleybol, həndbol, atletika, cüdo, karate, üzgüçülük idman növlərinə xüsusi diqqət yetirildiyini vurğulayıb. Bildirib ki, hovuz hələlik işləməsə də, üzgüçülüklə məşğul olan tələbə idmançılar ümumi fiziki hazırlıqlarını daim artırırlar. Məqsəd odur ki, hovuz fəaliyyətə başlayanda onları üzgüçülüyə cəlb edə bilsinlər: “Bundan əlavə, aerobika idman rəqsləri, Roma güləşi və sərbəst güləş, futzal, şahmat, dama idman növlərinə də maraq az deyil. Onu da bildirim ki, futzal, voleybol üçün yüzlərlə tələbə müraciət edir və bu idman növləri üzrə ayrıca bölmə fəaliyyət göstərir”.

Pandemiyadan sonra klubun müxtəlif idman növləri üzrə 30-a yaxın yarışa ev sahibliyi etdiyini söyləyən Q.Aslanov, ötən il 31 may tarixində 7 idman növü üzrə “Zəfər festivalı” adlı böyük bir yarış təşkil etdiklərini də xatırladıb: “Bakıda yerləşən 10 ali təhsil müəssisəsinin tələbə idmançıları arasında ATU komanda hesabında birinci yerə çıxdı. Həvəskar idmançılarımızla yanaşı, peşəkar idmançılarımız da var. Onların istedadını, potensialını üzə çıxarmağa çalışırıq. Elə tələbə idmançılarımız var ki, respublikanın yığma komandasında oynayırlar. Şəraitimizə uyğun olaraq stolüstü tennis, badminton, voleybol, futzal və şahmat üzrə daha tez-tez yarışlar keçirə bilirik”.

Q.Aslanov təkmübarizəli idman növləri üzrə yarışlar keçirməyə isə risk etmədiklərini bildirib. Səbəbini həm bütün çəki kateqoriyasında idmançı tələbələrin tələb edilməsi,




həm də klubda travma alan idmançılara yardım göstərən həkim və tibb bacısının olmaması ilə əlaqələndirib.

Təqvim planına uyğun olaraq, vaxtaşırı bayram tədbirlərinin keçirildiyini deyən klubun müdiri, ölkə çempionatı, respublika əhəmiyyətli idman tədbirlərində də yaxından iştirak etdiklərini diqqətə çatdırıb: “Ötən ilin may ayında Heydər Əliyev Fondunun təşəbbüsü ilə Bakı bulvarında “Küləyə qalib gələk” şüarı ilə keçirilən ənənəvi marafona yenə qoşulduq. Ümumilikdə 15 min nəfərin qatıldığı marafonda əsas sertifikat birinci minlikdə gələnlərə verilirdi. Yüzlükdə gələnlər isə medal alırdı. Bizim tələbələrdən 96 nəfər minlikdə idi, onlardan 30 nəfəri medala layiq görüldü. Hətta İdman Akademiyası bu qədər medal almamışdı”.

Nəsimi rayon Gənclər və İdman İdarəsi ilə birlikdə dövlət əhəmiyyətli bayram tədbirlərinin, müxtəlif idman yarışlarının planlaşdırıldığını da vurğulayan Q.Aslanov, tələbələrin idmana cəlb olunması üçün təbliğat işinə xüsusi önəm verdiklərini bildirib. Qeyd edib ki, klubun əməkdaşları ilk növbədə I kursa qəbul olunanlarla təbliğat işi aparırlar. Ancaq dərs yükünün ağır olması səbəbindən onlar adətən II, III kursdan müraciət edirlər.

“Təbib” idman klubunun təşkil etdiyi tədbirlərdə yalnız tələbələrin deyil, professor-müəllim heyətinin iştirakı da müsbət haldır. ATU tələbələrinin idmana xüsusi maraq göstərməsi həm də yaxşı bir nümunədir. Çünki gələcəyin həkimi olaraq onlar yaxşı bilirlər ki, idman sağlamlığın rəhnidir.

**Azərbaycan Tibb Universitetinə ağır itki üz verib. Tibbi və bioloji fizika kafedrasının professoru, fizika-riyaziyyat elmləri doktoru, Əməkdar müəllim Zubeyid Haqverdi oğlu Tağıyev vəfat edib.**

# Xatirələrdə yaşayacaq müəllim



Z.Tağıyev 20 avqust 1945-ci ildə Ermənistan Respublikası Krasnoselo rayonunun Cil kəndində anadan olub. O, 1962-ci ildə Azərbaycan Dövlət Universitetinin fizika fakültəsinə qəbul olub. 1970-ci ildə isə M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin fizika fakültəsinə köçürülüb. 1972-ci ildə MDU-nu müvəffəqiyyətlə bitirərək, aspiranturaya daxil olub. 1975-ci ildə lazer fizikası sahəsində namizədlik dissertasiyasını, 1992-ci ildə isə doktorluq dissertasiyasını müdafiə edib.

O, 1976-cı ildən 1993-cü ilə qədər Bakı Dövlət Universitetinin fizika fakültəsində müxtəlif vəzifələrdə çalışıb. 1993-cü ildən 2018-ci ilə qədər Azərbaycan Tibb Universitetinin Tibbi və bioloji fizika, informatika və HT kursu kafedrasının müdiri vəzifəsində işləyib.

Professor Z.Tağıyev ümumilikdə 128 elmi və metodik işlərin, o cümlədən 1 monoqrafiya, 1 ixtira, 11 dərslik və dərs vəsaitləri, 4 metodik vəsaitin müəllifidir. Məqalələrinin 48-i xarici jurnallarda dərc olunub. Elmi nəticələrinin müəyyən hissəsi 4 fundamental monoqrafiyaya daxil edilib və həmin monoqrafiyalardan ikisi uzaq xaricdə də nəşr olunub.

Z.Tağıyev alınmış elmi nəticələrinə və yüksək ixtisaslı kadrların hazırlanması sahəsində səmərəli pedaqoji fəaliyyətinə görə Beynəlxalq Elmi Fondun mükafatına, “Əməkdar müəllim” fəxri adına və fəxri fərmanlara layiq görülüb. 1995-ci ildə Nyu York Elmlər Akademiyasının üzvlüyünə qəbul olunub.

Kollektivimizin yaddaşında silinməz iz qoyan səmimi insan, qayğıkeş pedaqoq, böyük müəllim Zubeyid Tağıyevin əziz xatirəsi heç vaxt unudulmayacaq.

**Allah rəhmət eləsin!**

*Tibbi və bioloji fizika kafedrasının kollektivi*

# Xeyirxahlığı ilə tanınmış peşəkar həkim

**2023-cü il fevralın 3-də Azərbaycan Tibb Universitetinin Nevrologiya kafedrasının assistenti Xəlilova Dilarə Məhəmməd qızı uzun sürən xəstəlikdən sonra vəfat edib.**



D.Xəlilova 1960-cı ildə Bakıda anadan olub. 1977-ci ildə Bakı şəhəri 189 saylı orta məktəbi qızıl medalla bitirib. Həmin ildə Nərimanov adına Azərbaycan Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsinə daxil olub, 1983-cü ildə institutu fərqlənmə diplomu ilə başa vurub. 1983-84-cü illərdə Semaşko adına 1 saylı Şəhər Klinik Xəstəxanasının 4B nevrologiya şöbəsində internatura keçib. 1986-92-ci illərdə Bakı şəhəri 10 saylı poliklinikada həkim-nevropatoloq kimi fəaliyyət göstərib. 1992-94-cü illərdə 1 saylı Şəhər Klinik Xəstəxanasının 4A nevrologiya şöbəsində həkim-nevropatoloq işləyib.

O, 1994-cü ildə ATU-nun Nevrologiya və tibbi genetika kafedrasında assistent vəzifəsinə təyin edilib. 2010-cu ildən ATU-nun Tədris Terapevtik Klinikasının Nevrologiya şöbəsinin müdiri vəzifəsində işləyib. 2013-cü ildə “Azərbaycan populyasiyasında epilepsiyalı xəstələrin həyat keyfiyyəti” mövzusunda tibb üzrə fəlsəfə doktoru dissertasiyasını müvəffəqiyyətlə müdafiə edib. Son bir neçə il ərzində Səhiyyə Nazirliyində nevrologiya üzrə mütəxəssis-ekspert kimi çalışıb. 2 övladı var.

Bu illər ərzində Dilarə xanım çox böyük müalicə işi aparıb, minlərlə xəstənin şəfa tapmasına kömək edib. Öz işinin peşəkarı olan D.Xəlilova Tibb Universitetinin rəhbərliyi və kollektivi, o cümlədən Tədris Terapevtik Klinika və Nevrologiya kafedrasının əməkdaşları arasında böyük nüfuz qazanıb, ehtiyacı olanlara həmişə kömək əli uzadan, xoşxasiyyətli bir şəxs kimi yaddaşlarda qalıb.

**Allah rəhmət eləsin!**

*Nevrologiya kafedrasının kollektivi*

## Allah rəhmət eləsin!

Tədris Terapevtik Klinikanın kollektivi, Nevrologiya, Fizioterapiya və tibbi reabilitasiya kafedralarının əməkdaşları Nevrologiya kafedrasının assistenti, tibb üzrə fəlsəfə doktoru

**Dilarə Xəlilovanın**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və mərhumun ailə üzvlərinə dərin hüznlə başsağlığı verirlər.

---

Sitologiya, embriologiya və histologiya kafedrasının kollektivi kafedranın assistenti Şəhla Hüseynovaya anası

**Nərminə Qasımovanın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

İctimai fənlər kafedrasının əməkdaşları kafedranın dosenti Fəridə Qəniyevaya qardaşı

**Fərhad Qəniyevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

II Mamalıq və ginekologya kafedrasının əməkdaşları kafedranın dosenti İradə xanım Tağıyevaya həyat yoldaşı

**Zubeyid Tağıyevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Sitologiya, embriologiya və histologiya kafedrasının kollektivi kafedranın baş müəllimi Nigar Quliyevaya qayınanası

**Solmaz Quliyevanın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

II Uşaq xəstəlikləri kafedrasının kollektivi I Uşaq xəstəlikləri kafedrasının professoru Gülnarə Nəsrullayevaya həyat yoldaşı

**Namiq Nəsrullayevin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

## Etibarsız sayılır

Soltanigermi Ali Masoud oğlunun (qrup 418İ3c) tələbə bileti, Şahin Ferganın (qrup 364A) müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

Baş redaktor
MƏĞRUR ƏLİYEV

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır

Qəzet “Təbib” qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, ATU-nun Nəşriyyat-Poliqrafiya şöbəsində çap olunur və universitet daxilində yayılır

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sifariş - 0002
Sayı 800